# Azərbaycan sosial rifah ölkəsidir

**Azərbaycanın hər bir guşəsində yüksələn sənaye müəssisələri, abadlaşan kəndlər, ucalan göydələnlər, rahat yollar və nəhəng körpülər inkişafın göstəricisidir. Elm, təhsil, sağlamlıq və idman sahələrində atılan addımlar gələcək rifahına hesablanmış strateji baxışın nümunəsidir. Bütün bu işlərin arxasında güclü siyasi iradə və xalqa bağlı dövlətçilik fəlsəfəsi dayanır. Parlaq sabahın təməli millətin iradəsi ilə atılır. Milli dəyərlərə söykənən dövlət siyasəti islahatlarla zənginləşir, idarəetmə sistemində vətəndaşa xidmət prioritet istiqamətdir. Sözügedən daxili siyasi düstur həm sosialyönümlüdür, həm də hər bir vətəndaşın rifahını ön planda tutur. Xüsusilə də dövlət quruculuğunda azərbaycançılıq ideyası - xalqı birləşdirən, tarixə və gələcəyə işıq salan fəlsəfə XXI əsrdə innovasiyalarla sintez olunur.**



Cəmiyyət zamanın çağırışlarına uyğun şəkildə transformasiyaya uğrayır, yeni reallıqlar və hədəflər ortaya çıxır. Xalqımız yeni mərhələyə qədəm qoyub. Sürətli sosial-iqtisadi inkişafla, çevik və demokratik dövlət modeli ilə artan sosial rifah gələcək nəsillərə yeni ümid körpüsüdür. Bütün bu nailiyyətlərin mayasında isə Ulu Öndər Heydər Əliyevin iradəsi ilə yoğrulmuş, Prezident İlham Əliyevin liderliyi ilə mükəmməlləşmiş sosial rifah strategiyası dayanır.

Ölkəmizin əldə etdiyi iqtisadi uğurların nəticəsidir ki, bu gün qüdrətli Azərbaycan dövləti insan amilinə verdiyi dəyərlə fərqlənir. Dövlətin yürütdüyü makroiqtisadi siyasətin mərkəzində vətəndaşın rifahı, sosial ədalət dayanır. Sosial müdafiə və təminat məsələlərinə ayrılan vəsaitin ildən-ilə artırılması olduqca əlamətdardır. Son illərdə müasir standartlara cavab verən 2500-dən çox məktəb binası inşa olunub. Uşaqlar daha yaxşı şəraitdə təhsil alır, müəllimlər modern təhsil ocaqlarında çalışırlar. Yüzlərlə səhiyyə müəssisəsi insanların sağlamlığına xidmət göstərir, idman kompleksləri isə sağlam nəslin yetişməsi üçün mühüm rol oynayır. Regional inkişaf proqramları bu mənzərədə mühüm yer tutur. Paytaxtla bölgələr arasındakı inkişaf fərqi zamanla azalır, bərabərlik prinsipi həyatın hər sahəsinə nüfuz edir. Artıq təkcə Bakıda deyil, ölkənin hər bucağında inkişafın nəfəsini duymaq olur. Əməkhaqları, sosial müavinətlər daim artırılır. 2004-cü ildən bəri mərhələli şəkildə həyata keçirilən və hər biri konkret dövrləri əhatə edən Dövlət proqramları ölkənin iqtisadi inkişafına təkan verir. 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə edən dövlət proqramları abadlaşan kəndlər, işıq saçan qəsəbələr, canlanan iqtisadiyyat və rifah içində yaşayan insanların təminatı baxımından xüsusi önəm daşıyır. İcra olunan proqramların əsas hədəfi ölkənin hər yerində həyat keyfiyyətini yüksəltmək, sosial ədaləti və iqtisadi tarazlığı təmin etməkdir.





İstehsalat müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması region iqtisadiyyatını canlandırır. Bu, həm yerli resursların dövriyyəyə cəlb edilməsi, həm də minlərlə insana yeni iş imkanı deməkdir. Aqrar sahədə tətbiq olunan müasir yanaşmalar - texnoloji intensivlik, fermerlərə dəstək, kənd təsərrüfatına xidmət göstərən mərkəzlərin yaradılması inzibati əraziləri yenidən ölkənin strateji sütunlarından birinə çevirir. Dövlət təkcə torpağı yox, insanı da düşünərək regionlara investorların cəlb olunması üçün əlverişli mühit yaradır. Bu gün müasir təsərrüfatlar, aqroparklar, innovativ istehsalat sahələri, sosial obyektlər qurulur, regionlarda yeni iş yerləri açılır, insanlar doğulub boya-başa çatdıqları torpaqlarda işləmək, yaşamaq, qurmaq fürsəti qazanırlar.

Qeyd edək ki, əhalinin məşğulluq qabiliyyətinin artırılması xüsusi önəm daşıyır. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi ötən il ərzində 396,7 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 160 min şəxs münasib işlərlə təmin olunub, 17,3 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. 2024-cü ildə 15,6 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub. Ötən il Agentlik tərəfindən 203,8 min şəxsə peşəyönümü xidmətlər göstərilib. Məhz 2025-ci ilin birinci yarımilində 229,5 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib. 74 min şəxs münasib işlərlə təmin olunub, 9,8 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. 6,1 min işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil olunub, 139,6 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

Həmçinin, müavinət və pensiyaların artırılması istiqamətində də əhəmiyyətli işlər görülür. Əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artırılması istiqamətində 4 milyondan çox vətəndaşımıza 7 milyarda yaxın vəsait ayrılmışdır. Həmin islahatlar nəticəsində minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 71,3 faiz, median əməkhaqqı 2,2 dəfə və əməkhaqqı fondu isə 2,7 dəfə artmışdır. O cümlədən, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artaraq illik 400 milyon manatdan 1,9 milyard manata yüksəlib. Bundan başqa, ünvanlı yardımın orta aylıq məbləğində 2,8 dəfə (175 manat - 487 manat), ehtiyac meyarı 2,3 dəfə (116 manat - 270 manat) artıb, habelə, 10 yeni sosial ödəniş növü təsis edilib. Bütövlükdə, 2024-cü ildə fondun təsdiq olunmuş xərcləri 6 milyard 949 milyon manat idisə, 2025-ci il üçün 7 milyard 676 milyon manat nəzərdə tutulub. Yəni, bu il fondun xərclənmələrinin təxminən 10 faiz çox olacağı gözlənilir. Bu isə 2025-ci ildə yeni sosial paketin icrasına başlanılması ilə bağlıdır. 2025-ci ilin ilk 4 ayında fond tərəfindən 17500-dən çox şəxsə pensiya təyin edilib. Bunlar yaşa, əlilliyə və ailə başçısını itirməyə görə pensiya təyinatlarıdır.

Ölkə başçısının da qeyd etdiyi kimi, 2024-cü ildə iribüdcəli layihələr icra etməyimizə baxmayaraq, maliyyə vəziyyətimizi böyük dərəcədə yaxşılaşdıra, öz ehtiyatlarımızı artıra bildik. İl ərzində valyuta ehtiyatlarımız təqribən 5 milyard dollardan çox artıb və indi bu rəqəm 72 milyard dollara bərabərdir. 10 milyon əhalisi olan bir ölkədə adambaşına düşən ehtiyatların həcminə görə Azərbaycan dünyada aparıcı ölkələr sırasındadır. Valyuta ehtiyatlarımızın xarici borcumuzu 14 dəfə üstələməsi iqtisadiyyatımızın dayanıqlılığından xəbəri verir. Bununla yanaşı, əgər 5 il öncə xarici borcumuz ümumi daxili məhsulun təqribən 20 faizi həcmində idisə indi bu cəmi 7.2 faizdir. Qarşıya qoyulan böyük layihələri icra etmək və büdcə yükünü azaltmaq üçün əhəmiyyətli tədbirlər davam etdirilir.

Bu gün ölkəmizdə baş verən hər bir sosial yenilik, atılan hər addım bir həqiqəti daha da aydın göstərir. Azərbaycan dövləti vətəndaşının rifahını yalnız şüarlarla deyil, ardıcıl və konkret qərarlarla təmin edir. Sosial siyasət kağız üzərində deyil, gündəlik həyatımızda - maaş artımlarında, yeni iş yerlərində, əhalinin güzəranında özünü göstərir. Sosial rifahın artırılması, eyni zamanda ölkənin iqtisadi həyatını canlandırır. Daha çox qazanan insan daha çox xərcləyir, bazarlarda ticarət intensivləşir, istehsal artır, xidmət sektoru inkişaf edir. Yəni rifah tək bir fərdin deyil, bütün cəmiyyətin qazancına çevrilir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika.- 2025.- 8 iyul (№ 137).-